# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

11 (129) 20 iyun 2019-cu il İctimai-siyasi qəzet


## İlham Əliyev əsaslı şəkildə təmir və bərpa olunan “Yanardağ” qoruğunun açılışında iştirak edib



İyunun 12-də əsaslı şəkildə təmir və bərpa olunan “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Xatırladaq ki, 2017-ci il dekabrın 29-da Prezident İlham Əliyev “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda olmuşdu. Dövlətimizin başçısı o zaman buradakı çatışmazlıqları və qeyri-məqbul şəraitin olduğunu qeyd edərək, bunun ölkəmizin ümumi inkişaf səviyyəsinə uyğun gəlmədiyini bildirmişdi. Prezident İlham Əliyev oradaca qoruqdakı şəraitin qısa müddət ərzində müasir səviyyəyə çatdırılması barədə aidiyyəti dövlət qurumlarına ciddi tapşırıq vermişdi.

Dövlətimizin başçısı qoruğun rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, qoruq yeni konsepsiyaya uyğun olaraq bərpa edilib. Abşeron rayonunun Məmmədli kəndində yerləşən Yanardağ abidəsinin ərazisi Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı Sərəncamla Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu elan edilib. Qoruğun fəaliyyəti Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli müvafiq



qərarına əsasən Dövlət Turizm Agentliyi tərəfindən tənzimlənir. Dövlətimizin başçısının ötən ilin iyulunda imzaladığı Sərəncama əsasən “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması və ərazisində yeni turizm infrastrukturunun yaradılması məqsədilə 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan vəsait ayrılıb. Qoruğun bərpası Dövlət Turizm Agentliyinə həvalə olunub.

Aparılan yenidənqurma işləri çərçivəsində ümumi sahəsi 64,55 hektar olan qoruğun ərazisində 3 tematik zonadan ibarət muzey, açıq hava konsertləri üçün nəzərdə tutulan 500 nəfərlik amfiteatr, sənətkar emalatxanaları və mağazalar, yerli sənətkarlar tərəfindən keramika, şüşə, taxta və parça kimi təbii materiallardan hazırlanan suvenirlərin satışı məntəqəsi, parkinq turistlərin ixtiyarına verilib. 2007-ci ildən qoruq statusuna malik olan Yanardağda, həmçinin ərazidə tapılan, yerli əhali tərəfindən istifadə edilmiş qədim daşlar və sənətkarlıq nümunələrinin, qaval daşının nümayiş etdirildiyi açıq hava muzeyi yaradılıb. Bundan əlavə, qoruq ərazisində yerli gənc rəssamların əsərlərinin nümayiş olunduğu kafe, əyləncə zonası, uşaqlar üçün oyun meydançası fəaliyyət göstərəcək. Fiziki məhdudiyyətli şəxslərin Yanardağ alovunun ətrafına enməsi üçün xüsusi yol çəkilib. Bütövlükdə qoruq ərazisi abadlaşdırılaraq müxtəlif ağaclar əkilib.

Qoruğun tərkibində Yanardağ – əbədiyaşar alov təbii abidəsi ilə yanaşı, digər maddi-mədəni irs nümunələri və təbiət abidələri də var. Bu abidələrə “Qurd yuvası” adlanan ilkin ibtidai icma dövrünə aid mağaralar, çoxəsrlik tarixə malik və qədim sanduqələrlə zəngin iki qəbiristanlıq, müalicəvi kükürdlü su bulaqları, hələ də aktiv fəaliyyətdə olan Qırməki palçıq vulkanı, Əlidaşı piri, Kardaşı iri təbii qaya daşları, Qırməki vadisi, qədim kurqan aiddir.

Ölkəmizdə mövcud olan tarixi, dini, mədəni abidələrin bərpası dövlət siyasətində mühüm yerlərdən birini tutur. Prezident İlham Əliyevin diqqəti sayəsində bu cür obyektlərin təmiri, bərpası, yenidən qurulması istiqamətində çox böyük işlər görülüb. Dövlətimizin başçısının imzaladığı Sərəncama əsasən “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması və ərazisində yeni turizm infrastrukturunun yaradılması da bu istiqamətdə görülən işlərin ardıcıl xarakter aldığını nümayiş etdirir. Azərbaycanda dövlət səviyyəsində bu istiqamətdə həyata keçirilən işlərə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da sanballı töhfələr verir. Bu layihələrin icrası bir neçə mühüm amili birləşdirir. İlk növbədə, bu işlər tarixi, dini, mədəni abidələrə dövlətimiz tərəfindən nə qədər həssaslıqla yanaşıldığını göstərir, Azərbaycanın qədim, tarixi diyar olduğunu bir daha sübut edir. Bundan başqa, turistləri cəlb etmək baxımından da “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması mühüm rol oynayır.

“Yanardağ” qoruğunda görülən işlərlə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.

AZƏRBAYCAN VETERANI

# Respublika Veteranlar Təşkilatında Azərbaycan Xalq Cümhuriyyətinin 101 illiyi qeyd olunub

Şərqdə ilk demokratik respublikanın məhz Azərbaycanda yaradılması xalqımızın tarixində qürurverici hadisədir. Xalq Cümhuriyyəti Azərbaycan tarixində müstəsna yer tutur. Cümhuriyyətin qurulması sonrakı mərhələdə Azərbaycan dövlətçiliyinin qorunmasına, müstəqil respublika kimi inkişafına əsaslı zəmin yaradıb. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və 23 aylıq fəaliyyəti xalqımızın tarixinin parlaq səhifələrindəndir. Bugünkü müstəqil Azərbaycan Respublikası Cümhuriyyətin siyasi və mənəvi varisidir. Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin dövlət səviyyəsində geniş qeyd edilməsi haqqında ötən il imzaladığı Sərəncam ölkə rəhbərliyinin xalqımızın dövlətçilik ənənələrinə, xüsusilə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinə verdiyi yüksək dəyərin təzahürüdür. Bu fikirlər Cümhuriyyətin yaradılmasının 101-ci ildönümü münasibətilə mayın 27-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında keçirilən tədbirdə səslənib.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixindən və fəaliyyətindən danışan Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov bildirib ki, Prezident İlham Əliyevin ötən il imzaladığı Sərəncam həmin dövrdəki tarixi hadisələrin, qazanılan nailiyyətlərin gənclərimizə çatdırılması və təbliği baxımından böyük önəm daşıyır. Veteranlarımız dövlətimizin başçısının Azərbaycan Xalq Cümhuriyyəti irsinə göstərdiyi bu diqqəti yüksək qiymətləndirirlər. Azərbaycan dövləti və xalqı bu tarixi nailiyyətin qazanılmasında xidməti olan Cümhuriyyətin qurucularının və fədailərinin xatirəsini hörmət və ehtiramla anır.

Qeyd edilib ki, xalqımız uzun illər müstəqillik arzusu ilə yaşayıb. XX əsrin əvvəllərində baş verən proseslər, eləcə də Cənubi Qafqaz regionunda yaranmış şərait Azərbaycanın müstəqilliyini əldə etməsinə tarixi imkan yaradıb. Bu imkandan istifadə edən Cümhuriyyətin qurucuları 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyinin elan olunması haqqında tarixi qərar qəbul ediblər. Beləliklə, Azərbaycanın milli dövlətçiliyi bərpa olunub. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bütün dünyaya elan edilib. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında yeni bir mərhələ, tarixi hadisə oldu. Odur ki, xalqımızın azadlıq və müstəqillik mübarizəsi tarixinə qızıl hərflərlə həkk olunmuş 1918-ci il mayın 28-i hər bir Azərbaycan vətəndaşının qürur duyduğu bir gündür.

Məlumat verilib ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süquta uğrasa da, 71 ildən sonra - 1991-ci il oktyabrın 18-də tarixi yaddaşına sadiq qalan xalqımız yenidən müstəqilliyinə qovuşub. Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi ilə Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənib və ölkə həyatının bütün sahələrində inkişafın əsasları qoyulub. Hazırda bu siyasət Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.




Azərbaycan Milli Elmlər Akademiyasının aparıcı elmi işçisi Vaqif Abışov diqqətə çatdırıb ki, Şərqdə ilk demokratik respublikasının qurulması yalnız Azərbaycanın deyil, bütün türk dünyası üçün mühüm tarixi əhəmiyyət kəsb edib. XX əsrin əvvəllərindəki çətin ictimai-siyasi şəraitdə xalqımızın ziyalıları Azərbaycan Xalq Cümhuriyyətini quraraq onun müstəqilliyinin dünyada tanınması üçün böyük işlər görüblər. İlk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyıb.

Fəlsəfə elmləri doktoru İmran Əbilov, veteranlar çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən, fəaliyyətinin ayrı-ayrı istiqamətlərindən, həmin dövrdə görülən genişmiqyaslı işlərdən danışıblar. Çıxış edənlər Azərbaycanın ilk müstəqil dövlətinin demokratik idarəçilik mexanizmlərinə, parlamentli respublika quruluşuna malik olduğunu qeyd edərək Cümhuriyyət dövründə Azərbaycanın müstəqil dövlət atributlarının qəbul edilməsi, ölkənin hazırda mövcud olan əksər dövlət orqanlarının yaradılması və s. barədə iştirakçılara ətraflı məlumat veriblər.

Diqqətə çatdırılıb ki, hazırda Azərbaycan dövləti bütün sahələrdə sürətlə inkişaf edir. Ordu quruculuğu prosesi Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşdırılır. Bu gün müasir Azərbaycan ordusu işğal altındakı ərazilərimizi azad etməyə, ölkəmizin ərazi bütövlüyünü təmin etməyə tam qadirdir. Veteranlar da Ali Baş Komandanın əmri ilə qəhrəman Azərbaycan əsgəri ilə bir sırada bu müqəddəs vəzifənin yerinə yetirilməsi üçün hər an döyüşlərə qatılmağa hazırdırlar.

Tədbirdə İkinci Dünya, Qarabağ, Əfqanıstan müharibələri, əmək və Silahlı Qüvvələr veteranları, ziyalılar, gənclər, şagirdlər iştirak ediblər.

## *Tariximizin dönüş anı - 15 İyun - Qurtuluş günü*

İyun ayının 11-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında 15 İyun - Qurtuluş gününə həsr edilmiş tədbir həyata keçirilib. İkinci Dünya, Qarabağ, Əfqanıstan müharibəsi, əmək və Silahlı Qüvvələr veteranları, gənclərin, ziyalıların, ictimaiyyətin və medianın nümayəndələri iştirak etdiyi tədbir Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi ilə başlanmışdır.

Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov Milli Qurtuluş günü barədə giriş nitqi ilə çıxış edərək 15 iyun gününün əhəmiyyətindən danışdı. Bildirdi ki, hər bir xalqın milli oyanış, yaddaşa qayıdış, əbədi istiqlaliyyət tarixində unudulmaz anları olur. Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan ən önəmli günlərdən biri də 1993-cü il 15 iyun tarixidir. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş bu gün onu dərindən dərk edənlər üçün çox əzizdir. Milli Qurtuluş Günü həm də böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malikdir. Xalqımızın müstəqillik tarixində müstəsna yeri olan 15 İyun - Milli Qurtuluş Günü ilə ölkəmizin həyatında yeni dövr başlayıb, dövlətçiliyimizin möhkəmlənməsi, müstəqilliyimizin dönməz və əbədi olması üçün mühüm fəaliyyətin əsası qoyulub. Vətənini, xalqını sevən, həmin çətin günlərin dəhşətlərini yaşayan insanlar üçün iyunun 15-i Azərbaycan xalqının ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyinin qorunmasında, parlaq gələcəyinin təmin edilməsində müstəsna rol oynayan, daim xalqına dayaq olan dahi şəxsiyyət - Heydər Əliyevdir. Heydər Əliyevin hakimiyyətə qayıdışı günü müstəqil Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi əbədi həkk edilib. Respublika Veteranlar Təşkilatının sədr müavini diqqətə çatdırıb ki, ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı, dövlətçiliyimizi məhv olmaqdan xilas etməsi, güclü, inkişaf edən və milli varlığımızı yaşadan ölkəyə çevirməsi Azərbaycan amalını qəlbində yaşadan bütün insanlar üçün epoxal əhəmiyyət kəsb edən dövlətçilik təcrübəsi olub. Bugünkü uğur və nailiyyətlərimiz də məhz dahi şəxsiyyətin adı ilə bağlıdır.

Daha sonra Təşkilatın sədr müavini Cəlil Xəlilov çıxışını davam etdirərək bildirdi ki, İkinci Dünya müharibəsi veteranları ulu öndər



Heydər Əliyevin misilsiz fəaliyyətinin şahidləridir. Prezident İlham Əliyev əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan veteranlara dövlət qayğısı siyasətinin Azərbaycanda müasir mərhələdə daha da inkişaf etdirib. Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə qəbul edilən “Veteranlar haqqında” Azərbaycan Respublikasının Qanununda əksini tapmış diqqət və qayğı dövlətimizin başçısı İlham Əliyevin prezidentliyi dövründə daha da genişləndirilib. Müntəzəm imzalanan dövlət proqramları və sərəncamlar əsasında müharibə veteranlarının mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlara Prezident təqaüdünün verilməsi, hər il 9 May - Qələbə Günü ərəfəsində MDB məkanında ən yüksək məbləğdə birdəfəlik maddi yardım edilməsi və başqa xeyirxah işlər bunun parlaq sübutlarıdır. Odur ki, veteranlar Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı böyük nailiyyətlərdən qürur duyurlar.

Çıxış edənlər ötən əsrin 90-cı illərinin ictimai-siyasi hadisələrindən, 1993-cü ilin iyununda respublikamızda yaranmış ağır ictimai-siyasi vəziyyətdən, belə bir dövrdə xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyasından danışdılar. Şanlı tarix səhifəsini yaradan isə yenə də Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan bir insan - Heydər Əliyev olduğunu, Vətənini, xalqını sevən həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi olduğunu vurğuladılar. Yaxın gələcəkdə qəhrəman Azərbaycan əsgərinin üçrəngli bayrağımızı hazırda işğal altında olan bütün ərazilərimizdə dalğalandıracağına inandıqlarını bildirdilər.

# Cəlil Xəlilov: 15 İyun Azərbaycan dövlətçiliyinin xilas günüdür

Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan ən önəmli günlərdən biri də 1993-cü il 15 iyun tarixidir. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş bu gün onu dərindən dərk edənlər üçün çox əzizdir. Milli Qurtuluş Günü həm də böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malikdir. Xalqımızın müstəqillik tarixində müstəsna yeri olan 15 İyun - Milli Qurtuluş Günü ilə ölkəmizin həyatında yeni dövr başlayıb, dövlətçiliyimizin möhkəmlənməsi, müstəqilliyimizin dönməz və əbədi olması üçün mühüm fəaliyyətin əsası qoyulub. Vətənini, xalqını sevən, həmin çətin günlərin dəhşətlərini yaşayan insanlar üçün iyunun 15-i Azərbaycan xalqının ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyinin qorunmasında, parlaq gələcəyinin təmin edilməsində müstəsna rol oynayan, daim xalqına dayaq olan dahi şəxsiyyət - Heydər Əliyevdir. Heydər Əliyevin hakimiyyətə qayıdışı günü müstəqil Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi əbədi həkk edilib.

Bu fikirləri Azərbaycan Respublikasının Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı sədrinin müavini, polkovnik Cəlil Xəlilov AZƏRTAC -a açıqlamasında söyləyib.

C.Xəlilov bildirib ki, xalqımızın tarixi yaddaşına əbədi həkk olunmuş Milli Qurtuluş Günü ölkəmizin hər yerində dahi lider Heydər Əliyevə dərin hörmət və məhəbbətlə, onun Vətən və xalq qarşısındakı fədakar xidmətinə böyük minnətdarlıq hissi ilə qeyd olunur. XX əsrin sonunda müstəqilliyini bərpa etmək kimi tarixi fürsət qazanan Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. O vaxtkı iqtidarın səriştəsizliyi, hakimiyyət böhranı 1993-cü ilin iyununda ən yüksək həddə çatmış, xaos və anarxiya ölkəni bürümüş, vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə almışdı.

"Müstəqilliyini əldə etmiş Azərbaycan 1993-cü ilədək daxili çəkişmələr məkanına çevrilmişdi. Milli Qurtuluş Günü də məhz bu baxımdan böyük siyasi əhəmiyyət kəsb edir. 1993-cü il iyunun 15-də xalqın təkidi ilə hakimiyyətə qayıdan Heydər Əliyev müdrik siyasəti ilə Azərbaycan dövlətçiliyini məhv olmaq təhlükəsindən xilas etdi. Bu səbəbdən də Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilas olduğu, Azərbaycanın hərcmərclikdən, parçalanma təhlükəsindən qurtulduğu, sabitliyə qovuşduğu gündür. Nəticədə nizami ordu yaradıldı, Qarabağ müharibəsində atəşkəs əldə edildi, münaqişənin dinc yolla nizama salınmasına dair danışıqlara başlanıldı, idarəetmə sistemi formalaşdırıldı, insanların dövlətə inamı qaytarıldı, "Əsrin müqaviləsi" imzalandı, Azərbaycanın iqtisadi dirçəlişinin əsası qoyuldu. Qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son verildi, referendum yolu ilə Konstitusiya qəbul edildi. Azərbaycanın beynəlxalq əlaqələri formalaşdırıldı, ölkənin dünya birliyinə inteqrasiyası prosesi başlandı. Qurtuluşun sayəsində Azərbaycan dünyada demokratik ölkə kimi tanınıb, dünya birliyində layiqli yer tutub. Azərbaycanın bugünkü uğurları da qurtuluş məfkurəsi ilə əlaqədardır", - deyə Cəlil Xəlilov vurğulayıb.

Respublika Veteranlar Təşkilatının sədr müavini diqqətə çatdırıb ki, ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı, dövlətçiliyimizi məhv olmaqdan xilas etməsi, güclü, inkişaf edən və milli varlığımızı yaşadan ölkəyə çevirməsi Azərbaycan amalını qəlbində yaşadan bütün insanlar üçün epoxal əhəmiyyət kəsb edən dövlətçilik təcrübəsi olub. Bugünkü uğur və nailiyyətlərimiz də məhz dahi şəxsiyyətin adı ilə bağlıdır.

"İkinci Dünya müharibəsi veteranları ulu öndər Heydər Əliyevin misilsiz fəaliyyətinin şahidləridir. Prezident İlham Əliyev əsası ulu öndər



Heydər Əliyev tərəfindən qoyulan veteranlara dövlət qayğısı siyasətinin Azərbaycanda müasir mərhələdə daha da inkişaf etdirib. Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə qəbul edilən "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanununda əksini tapmış diqqət və qayğı dövlətimizin başçısı İlham Əliyevin prezidentliyi dövründə daha da genişləndirilib. Müntəzəm imzalanan dövlət proqramları və sərəncamlar əsasında müharibə veteranlarının mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlara Prezident təqaüdünün verilməsi, hər il 9 May - Qələbə Günü ərəfəsində MDB məkanında ən yüksək məbləğdə birdəfəlik maddi yardım edilməsi və başqa xeyirxah işlər bunun parlaq sübutlarıdır. Odur ki, veteranlar Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı böyük nailiyyətlərdən qürur duyurlar, - deyə polkovnik C.Xəlilov bildirib.

## *Birinci Dünya müharibəsindən çıxarılan dərslər*

Bolqarıstanın paytaxtı Sofiyada "Sülh və dostluq missiyası - Birinci Dünya müharibəsinin başa çatmasının 100 illiyi: dərslər və müasirlik" adlı beynəlxalq humanitar aksiya keçirilib.

Ölkəmizi tədbirdə Qarabağ müharibəsi veteranı, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru, professor Bədirxan Əhmədli təmsil edib.

AZƏRTAC-a bu barədə məlumat



verən B.Əhmədli deyib: "Dünyanın otuza qədər ölkəsindən nümayəndə heyəti qatılan tədbirdə 12 məruzə dinlənilib. Plenar iclasda ehtiyatda və istefada olan zabit təşkilatlarının Beynəlxalq Məsləhət Komitəsinin prezidenti, general Aleksandr Kanşin, Bolqarıstanın ehtiyatda və istefada olan zabit və serjantlar təşkilatının sədri, general Zlatan Stoykov, Assambleyanın baş katibi A.Kumaxovun məruzə və hesabatları dinlənilib. Daha sonra Serbiya, Ukrayna, Rusiya və Azərbaycandan gəlmiş nümayəndələr məruzə ediblər.

Professor bildirib ki, məruzəsində Birinci Dünya müharibəsindən keçən müddətdə bir çox müharibə və münaqişələrin baş verdiyini və milyonlarla insanların bu müharibənin qurbanı olduğunu və lokal toqquşmaların bu gün də davam etdiyini nəzərə çatdırıb.

Qeyd edib ki, bu müharibələrdən çıxarılan dərslər çoxdur, lakin bir çox dövlətlər bundan lazımi nəticə çıxarmayaraq qonşu xalqların torpağına göz dikir. O deyib: "Bu gün biz buraya onun başvermə səbəblərini də müzakirəyə yığışmamışıq. Bunun üçün artıq gecdir. Ancaq gec olmayan bir şey var: müharibədən çıxan dərsləri nəzərə almaq, gələcəyin inşasında bu dərslərdən çıxış etmək lazımdır. Müharibə yalnız fiziki mövcud olmaya deyil, həmçinin iradəsini başqalarına qəbul etdirməyə xidmət edir. Azərbaycan xalqı həmişə sülh tərəfdarı olub, qonşularla dinc, yanaşı yaşamağı üstün tutub. Bu gün Azərbaycanda müxtəlif xalqlar, millətlər birgə yaşayır. Baxmayaraq ki, Azərbaycan bu gün də terrorizmdən və separatizmdən ən çox əziyyət çəkən ölkədir, ancaq multikultural siyasətini yürütməkdə davam edir. Müharibədə güc yolu ilə əldə etdiyini sülh yolu ilə vermək istəmirsənsə, demək ki, müharibə tərəfdarısan".

B.Əhmədli Bolqarıstanın ehtiyatda və istefada olan zabitlər və serjantlar ittifaqının sədri, general Zlatan Stoykov ilə də görüşüb və təşkilatlar arasında qarşılıqlı əməkdaşlığın vacibliyi qeyd edilib.

## "Vətənə oğul olanlar" bədii-sənədli filmi nümayiş olunub

İyunun 12-də Respublika Veteranlar Təşkilatında Aprel şəhidi əsgər Əlizaman İslamova həsr olunmuş "Vətənə oğul olanlar" bədii-sənədli filminin nümayişi keçirilib. Filmin ssenari müəllifi Mehriban Sadıqova, quruluşçu rejissoru isə Elman Ağamalıyevdir.

AZƏRTAC xəbər verir ki, tədbirdə Daxili İşlər Nazirliyinin 2 saylı bağçasının və Sumqayıt şəhərinin 35 nömrəli tam orta məktəbin şagirdləri Aprel şəhidlərinə həsr olunmuş şeirlər səsləndirib və tamaşalar göstəriblər. Tamaşalardan sonra film nümayiş etdirilib.

Filmin nümayişindən sonra çıxış edən Milli Məclisin deputatı Adil Əliyev diqqətə çatdırıb ki, Əlizaman İslamov öz qəhrəmanlığı



ilə şəhidlik zirvəsinə ucalıb. Bu gün bizlər şəhidlərimizi yad etməklə, onların döyüş yolunu gələcək nəsillərə çatdırmaqla xalqımızın igidliyini təbliğ edə, gənclərimizin hərbi-vətənpərvərlik ruhunu artıra, işğal altındakı torpaqlarımızı qaytarmaq üçün qələbə əzmini gücləndirə bilərik.

Şəhidlərimizin vətənpərvərliyindən, qəhrəmanlığından, ordumuzun cəbhədəki uğurlarından söz açan A.Əliyev bildirib ki, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən bütün Vətən övladları heç vaxt unudulmayacaq, onların əziz xatirəsi daim qəlbimizdə yaşayacaq. Deputat Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə yüksək diqqət və qayğı göstərdiyini xüsusi vurğulayıb.

Şəhid Əlizaman İslamovun anası Hürnisə İslamova və digər şəhid anaları övladlarının Azərbaycan dövlətinin öz qəhrəmanlarına və şəhidlərinin xatirəsinə böyük hörmətlə yanaşdığını vurğulayıblar.

# Veteranlar "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi ilə keçirilən Ordumuza mənəvi dəstək aksiyasına qoşulub

Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə dəstək vermək hər birimiz üçün müqəddəs vəzifədir. Ulu öndər Heydər Əliyevin dəfələrlə dediyi kimi, Ordu bütün xalqın övladıdır və onun formalaşmasına, inkişafına diqqət və qayğı göstərmək dövlət təşkilatlarının, yerli orqanların, Azərbaycan vətəndaşlarının borcudur.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov deyib.

C.Xəlilov bildirib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Nəinki orduda, bütün cəmiyyətdə vətənpərvərlik hissi yüksəkdir. Veteranlar bu işin daha geniş vüsət alması üçün əllərindən gələni əsirgəmirlər. Azərbaycan əsgərləri ilə veteranları sıx əlaqələr birləşdirir.

"Bir neçə gün əvvəl Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşəbbüsü və təşkilatçılığı ilə "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi ilə Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasına start verilib. UNEC-in rektoru, iqtisad elmləri doktoru, professor Ədalət Muradovun rəhbərliyi ilə professor-müəllim və tələbələrin bir qrupunun hərbi libas geyinərək cəbhəboyu bölgələrə, ön xətt mövqelərinə səfərləri, fəxri döyüş növbələrində dayanmaları, əsgərlərlə bir yataqxanada gecələmələri, onlara mənəvi dəstək olmaları veteranları da hədsiz sevindirib. Əsgər hiss edəndə ki, onu yada salan, ona arxa-dayaq olan, qayğıları ilə yaşayan, xidmətlərini yüksək qiymətləndirən arxa cəbhə varsa, deməli, ön səngərdə daha məğrur dayanacaq, ümidləri doğruldacaq, Vətən uğrunda, torpaq uğrunda canını, qanını belə əsirgəməyəcək", - deyə Cəlil Xəlilov vurğulayıb.

Respublika Veteranlar Təşkilatının sədr müavini diqqətə çatdırıb ki, UNEC-in bu təşəbbüsü əsl vətənpərvərlik təşəbbüsüdür. Veteranlar bu təşəbbüsü ürəkdən alqışlayır və bu gündən UNEC-in təşkil etdiyi xeyirxah vətənpərvərlik aksiyasına qoşulduğunu bəyan edir. Veteranların Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinə səfərləri mayın 27-də başlayıb.



# Əmək və Müharibə Veteranlarının Respublika Xəstəxanasında nə gördük?

Bu günlərdə Əmək və Müharibə Veteranlarının Respublika Xəstəxanasında olduq. Baş həkim Xuraman Zamanova bizi qarşıladı. Onunla həmsöhbət olduq.

Məlumat üçün qeyd edək ki, Zamanova Xuraman Balarza qızı - 18.08.1954-cü il tarixində Bakı şəhərində ziyalı ailəsində anadan olub. Orta məktəbi 1971-ci ildə bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinin müalicə fakultəsini fərqlənmə diplomu ilə bitirib. 1977-ci ildən Müharibə veteranları Respublika xəstəxanasında həkim terapevt vəzifəsində işləməklə əmək fəaliyyətinə başlamışdır. O, 1983-cü ildən baş həkimin müalicə işləri üzrə müavini vəzifəsində işləmiş, 2013-cü ilin oktyabr ayından baş həkimin müvəqqəti vəzifəsinin icraçısı vəzifəsi həvalə edilmiş, 23.11.2015-ci il tarixindən isə Səhiyyə Nazirinin 20.11.2015-ci il tarixli 151-k nömrəli Əmrinə əsasən Baş həkim vəzifəsinə təyin edilmişdir. Yeni Azərbaycan Partiyasının üzvüdür. Ailəlidir. 2 övladı var.

Əmək və Müharibə Veteranlarının Respublika Xəstəxanası Xəzər rayonu, Mərdəkan qəsəbəsi, Baba Əliyev 7 ünvanında yerləşir. İki dördmərtəbəli korpusdan, hansı ki, mehmanxana tipli yaşayış evi layihəsi əsasında tikilib, layihə tipli tələblərə cavab vermir və bir ikimərtəbəli müalicə korpusundan ibarətdir.

Xuraman xanım xəstəxana haqqında ümumi məlumat verərək bildirir ki, xəstəxana 300 çarpayılıqdır: 250 çarpayı terapevtik və 50 çarpayı nevroloji. Xəstəxananın əsas kontingentini Böyük Vətən müharibəsi, Qarabağ və Əfqanıstan müharibəsi iştirakçıları və veteranları, əmək veteranları, əlilləri, Çernobıl AES-də baş vermiş qəzanın aradan qaldırılmasında iştirak etmiş veteranlar təşkil edir.

Daha sonra baş həkim qeyd etdi ki, Xəstəxanada 5 şöbə fəaliyyət göstərir: Kardiologiya şöbəsinin müdiri - Balıyev Telman Həsən oğlu, böyük tibb bacısı Rəhmanova Xatirə Ənvər qızı, I terapiya şöbəsinin müdiri Mirzəyeva Gülnarə Əmirxan qızı, böyük tibb bacısı Dadaşova Nəzakət Arzuman qızı Nevrologiya şöbəsinin müdiri - Əsgərova Natella Həsən qızı, Nailə Əbülfəz qızı, böyük tibb bacı Quliyeva Almaz Sabir qızı, Qastroenterologiya şöbəsinin müdiri Əliyeva Gülşən Əliqulu qızı, masajist Zəhra xanımın, tibb bacısı Nərgiz Əliyevanı, böyük tibb bacısı Kərimova Təhminə Fikrət qızı, Herontologiya şöbəsinin müdiri Şabanov Səfər Mirzə oğlu, böyük tibb bacısı Mirzəyeva Dilşad Kamil qızı eyni zamanda veteranlara aşağıdakı: qəbul şöbəsi, stomatoloji, kliniki-diaqnostika və biokimyəvi laboratoriya, funksional diaqnostika, oftolmoloji, müalicə bədən tərbiyəsi, fizioterapevtik xidmətlər göstərilir.

Aldığımızı statistik məlumata görə 2018-cü ildə qəbul edilmiş xəstələrin sayı 3690 nəfər, 61504 çarpayı gün olub. O cümlədən Böyük Vətən Müharibəsi Əlili - 3 nəfər; Böyük Vətən Müharibəsi İştirakçısı -17 nəfər ; Əmək veteran - 2614 nəfər; Qarabağ Müharibəsi veteranı - 599 nəfər; Çernobıl AES qəzası iştirakçısı -37 nəfər; Əfqanıstan müharibəsi veteranı - 19 nəfər, Silahlı qüvvələr veteranları - 6 nəfər Sanatoriyamızda əsaslı müalicə alıblar. Xəstəxana əlillər üçün araba ilə təmin edilmişdir. Veteranların mədəni istirahətləri üçün 3 ədəd köşk, 30 ədəd oturacaqlar təşkil edilmiş, bütün şöbələrin xollarında televizor təşkil edilmiş, kitabxanada veteranların mədəni istirahətləri üçün şərait yaradılmışdır. Bayramlarda konsertlər və poeziya gecələri təşkil edilir.

Fizioterapiya şöbəsi yüksək tezlikli UVÇ, LUÇ-58, LUÇ-3, "Dalğa", "Darsanval" aşağıtezlikli: elektrofarez, amplipuls, interdin, SNİM-1, elektroson, kvars-işıq müalicəsi, stolüstü solyuks, işıq vannaları, inqalyasiya aparatları ilə təchiz olunub. 13.08.2014-cü il tarixindən "AZƏRSU" ASC tərəfindən şirin su xəttinin qoşulması ilə əlaqədar isti suyun verilməsi müntəzəm olaraq təmin edilir.

Xəstəxanada olarkən bizə məlumat verdilər ki, xəstəxana ərazisinin işıqlandırılması təmin edilmiş, müalicə korpusunda kombi istilik sistemi quraşdırılıb, "AZƏRSU" ASC müraciətlərdən sonra xəstəxanaya məxsus 161 metrlik mərkəzləşdirilmiş kanalizasiya xətti yenilənmişdir.

Buradakı həkimlər veteranlara layiqli xidmət göstərir. Onlar xəstələrə nəvazişlə yaxınlaşaraq xəstəliklərini yoxlayaraq məlum edir və lazimi dərmanlar yazır, hər kəsə bacı-analıq göstərirlər. Müalicə olunan xəstələrdən ancaq ürəkdolusu xoş sözlər eşitdik.

Xəstəxanada müalicə alan insanlar onlara göstərilə diqqət və qayğıdan tamamilə razı qaldılarını ifadə etdilər, onlara burada hər cürə şərait yaratdıqlarına görə tibb işçilərinə öz təşəkkürlərini çatdırdılar və arzu etdilər ki, bundan sonra da qayğıkeş xəstəxana işçiləri veteran xəstələrə daha yaxşı xidmət göstərsinlər.

Bir sözlə orada olarkən dəyərli həkimlərin xəstələrə qarşı çox diqqətli olması bizi ürəkdən sevindirdi. Burada xəstələrə həqiqətən yaxşı qulluq edilir, onların səhhəti ilə hər gün maraqlanır və həkimlər onların sağalmasına çalışırlar. Onu da xatırladaq ki, xəstələrə istirahət üçün hər cürə şərait yaradılıb. İnanırıq ki, bu xəstəxananın daha da yaxşı olması üçün rəhbər təşkilatlar buraya daha diqqətlə yanaşacaqlar. Xəstəxana işçilərinə bütün xəstələr adından təşəkkürümüzü bildiririk.

***Hacı Tofiq SEYİDZADƏ***

# "Uğurlu sabahlara doğru"adlı tədbirlər

Dövlət müstəqilliyimizin bərpasından sonrakı ötən illəri təhlil edərkən bir daha əminliklə söyləmək olar ki, həqiqətən də tarixin millətə verdiyi şansı yalnız görkəmli şəxsiyyətlərin iştirakı ilə reallaşdırmaq mümkündür. Bəşər tarixində zaman-zaman elə dahi şəxsiyyətlər olmuşdur ki, onlar öz xalqının taleyində əvəzsiz rol oynamış, onu dövrün çətin anlarından üzü ağ çıxarmış, dərin zəkası , dəmir iradəsi ilə ölkəsini intibaha, yüksəlişə aparmağa nail olmuşdur. Məhz o insanların tarixi xidmətləri sayəsində xalqlar çox böyük bəlalardan, ağır müharibələrdən mümkün qədər çox az itkilərlə ötüşüblər. Bu mənada Azərbaycan xalqı da ayrı-ayrı tarixi dövrlərdə dünya miqyasında tanınan, məşhur olan çox güclü xadimlər yetişdirib. Cavanşir və Şah İsmayıl kimi tədbirli və qüdrətli dövlət xadimlərini, Babək, Bəndər və Mübariz İbrahimov kimi igid oğulları, Nizami, Füzuli, Şəhriyar, Səməd Vurğun, Üzeyir bəy, Bülbül, Qara Qarayev, Rəşid Behbudov, Müslüm Maqamayev kimi söz və sənət dahilərini, Nəsrəddin Tusi, Yusif Məmmədəliyev, Ziya Bünyadov və Lütfi Zadə kimi elm korifeylərini dünyaya bəxş edən məhz Azərbaycan xalqı olub. Dünyanın bir çox yerlərində tanınan, hörmət və ehtiramla yad edilən çox sayda digər azərbaycanlıların adını sadalamaq mümkündür. Amma xalqımızın dünya xalqları içərisində yerini müəyyən etmək üçün təkcə ulu öndər Heydər Əliyevin adını xatırlatmaq kifayətdir. Heydər Əliyev şəxsiyyət qüdrəti, onun böyüklüyü dünyanın ən ucqar guşələrindən belə çox aydın görünür, dərk edilir, qəbul olunur. Belə ki, bütün dünya böyük dövlət liderlərinin, o cümlədən, ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Yaponiya, Rusiya kimi dövlət rəhbərlərinin dilindən ulu öndərlə bağlı dəfələrlə xoş sözlər eşidilmişdir. XX və XXI əsirlərin demək olar ki, bütün görkəmli siyasətçiləri, elm və sənət adamları onun şəxsiyyətinə, siyasi fəaliyyətinə, dövlət idarəçiliyi sahəsində misilsiz təcrübəyə malik olmasına olduqca yüksək dəyər veriblər. Həqiqətən də müasir Azərbaycan tarixinin bütöv bir qərinəsi yaddaşlarda Heydər Əliyev epoxası kimi əbədi qalacaq, hər zaman məhəbbət və ehtiramla yad olunacaq.

1993-cü ilin keşməkeşli iyun günlərində Azərbaycanda vətəndaş müharibəsi alovlananda xalq öz böyük və müdrik oğlu Heydər Əliyevə üz tutdu. Xalq nicatını onun hakimiyyətə qayıdışında gördü, xalqın xahişi və tələbi ilə ümummilli liderimiz yenidən Bakıya qayıtdı və iyunun 15-də Ali Sovetin sədri seçildi. Həmin gün çağdaş tariximizə Qurtuluş günü kimi əbədi olaraq daxil oldu. Xalqımızın böyük oğlu Heydər Əliyev qarşıya çıxan bütün çətinliklərə sinə gərib müstəqilliyimizi nəinki qoruyub saxladı, onu əbədiləşdirdi. Odur ki, müstəqil dövlətimizin həqiqi tarixi dönüş anı məhz Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı və vətənin taleyi üçün məsuliyyəti öz üzərinə götürdüyü vaxtdan başlayır.Ulu öndər Heydər Əliyevin prezidentliyi dövründə ilk növbədə ölkədə ictimai-siyasi sabitlik bərqərar olub. Qətiyyətlə yürüdülən daxili və xarici siyasət xətti durmadan həyata keçirildi. Hüquqi dövlət quruculuğu, milli formalaşma, Azərbaycanın beynəlxalq aləmdə demokratik imicinin yüksəlməsi istiqamətində önəmli və ardıcıl addımlar atıldı. İndi ölkəmizin hər yerində bütün şəhər və rayonlarının hər bir guşəsində ulu öndərin izi, nəfəsi duyulur.

Bu gün gənc nəsil ulu öndərin zəngin irsindən faydalanmaqdadır. Respublikamızın hər yerində olduğu kimi Sumqayıt şəhərinin ümumtəhsil məktəblərində də gənc Heydərçilərin sıraları durmadan artır. Bu günlərdə Sumqayıt şəhər 5 və 37 saylı tam orta məktəblərdə ulu öndərin anadan olmasının 95 illiyi ilə əlaqədar gənc Heydərçilərin andiçmə mərasimi keçirildi. Tədbirdə 5 saylı tam orta məktəbdən, Sumqayıt şəhər Veteranlar Təşkilatının sədri, əməkdar müəllim Leyla Qasımzadə, şəhər təhsil şöbəsi veteranlar təşkilatının sədri Məşdi Zeynalov, məktəbin direktoru Bəşir Səfiyev, müəllim və şagird kollektivi iştirak etmişdir. "Uğurlu sabahlara doğru" adlanan bu tədbir Heydər Əliyevin 95 illiyinə həsr edilmişdir. Tədbirdə Koroğlu verturası ilə uşaqların ifasında şeirlər, mahnılar səsləndirildi. Heydər Əliyevin həyat və yaradıcılığından ibarət slayd göstərilmişdir.

Tədbirdə gənclər çıxış edərək bildirdilər ki, onlar Heydər Əliyev yolunu layiqincə davam etdirəcək, gələcək nəsillərə bir nümunəvi örnək olacaqlar.

Tədbirin sonunda xatirə şəkilləri çəkilmişdir.

***Məşdi Zeynalov***
***Sumqayıt şəhər Təhsil şöbəsi Veteranlar Təşkilatının sədri, qabaqcıl maarif xadimi***

AZƏRBAYCAN VETERANI



11 (129) 20 iyun 2019-cu il

# Vətən torpağının igidlərindən biri

Bəşəriyyət keçən əsrdə üzləşdiyi ən böyük faciələrdən biri olan faşizm üzərində qələbənin növbəti 74-cü ildönümünü qeyd edir. Faşizmin törətdiyi İkinci dünya müharibəsində dünyanın tərəqqipərvər qüvvələrinin qalib gəlməsində Azərbaycan xalqının da misilsiz rolu olmuşdur. Bakı nefti Böyük Vətən müharibəsində döyüş texnikasını hərəkətə gətirmiş, xalqımız çoxlu sayda canlı qüvvə itirmiş, mərd oğullar savaş meydanlarında hünər göstərmişlər. Hünəri, rəşadəti ilə öyünməyə, fəxr etməyə haqqı olan insanlardan biri də Hüseynov Mirzəxan Həsənbəy oğlu 20 may 1926-cı ildə Kürdəmir rayonunun Kür sahilində yerləşən Çarlı kəndində bəy ailəsində anadan olmuşdur.

Orta təhsilini Şamaxı şəhərində almışdır. Müharibə başlayanda Mirzəxan orta məktəbi yenicə bitirmişdir. Böyük vətən müharibəsi başlayanda onun 17 yaşı var idi. Vətənin, xalqın ağır günləri başlanmışdı. Orta təhsilli gənc bunu çox gözəl dərk edir, bu çətin gündə elinə, obasına kömək etmək istəyirdi. Elə bu fikirlə də Şamaxı Rayon Hərbi Komissarlığına gedib könüllü olaraq cəbhəyə getmək istədiyini bildirir. Lakin onun yaşı çatmadığından müharibəyə getməyə icazə vermirlər. Lakin, Mirzəxan inadkarlığından dönməyib iki yaş yaşını artıq qeyd edərək cəbhəyə yola düşdü. Onu 17 nəfərlə birlikdə topçu hazırlayan məktəbə göndərirlər. Mirzəxan Hüseynov o illərdən söhbət açarkən deyirdi: "Gelencik adlanan yerdə bir neçə həftə qaldıq. Sonra bizi Semes buxtasına göndərdilər. Burada qızğın döyüşlər gedirdi. Bizə əmr verilmişdir ki, nəyin bahasına olursa-olsun "kiçik torpaq" düşməndən azad olunmalıdır. Düşmən güclü idi. Güllə, mərmi göydən yağış kimi yağırdı, hər addımda ölüm gözlənilirdi. Ancaq əmri yerinə yetirmək lazım idi. Döyüşdə yaralanmağıma baxmayaraq əmrin yerinə yetrilməsi üçün bütün qüvvəmi toplamışdım. Mən topçu idim və əsas hədəfləri vurmaq əmri mənə verilmişdi. Uzun və qızğın döyüşlərdən sonra faşistləri məhv edib susdurduq. Çoxlu itki versək də, düşməni darmadağın etdik." İlk düşmən gülləsinin "dadını" Mirzəxan burada gördü.

Uğurlu döyüşlərlə yanaşı, müharibənin çətinliklərindən də danışan Mirzəxan kişi bildirir ki, "Müharibə - qələbəsindən asılı olmayaraq, bütün halı ilə dəhşətlidir. Aclıq, susuzluq, hər gün insan itkisi, hər gün dəyişən sıra yoldaşların..." və s.

Müharibənin qızğın döyüşlərinin birində Mirzəxan kişi yaralı vəziyyətdə hərbi xəstəxanaya yerləşdirildi. Bir müddət müalicə aldıqdan sonra, yenidən cəbhəyə yollandı. Mirzəxan Hüseynov müharibənin ən alovlu vaxtlarında daim ön cəbhədə olmuş, böyük hünər göstərmiş qəhrəman döyüşçülərimizdəndir. Mirzəxan vətənin müxtəlif guşələrinin düşməndən azad edilməsində iştirak etmiş döyüşçü kimi qələbəni Berlində qarşılamaq arzusu ilə vuruşurdu.

"Kiçik torpaq" uğrunda qızğın döyüşlər davam edirdi. Döyüş zamanı əmr aldıq ki, qarşıda Sahil küçəsindəki yeddinci binada möhkəm pulemyot atəşi nöqtəsi vardır, ora məhv edilməlidir. Mən və topçu dostum yaralanmağımıza baxmayaraq əmri yerinə yetirdik. Faşistlərin güclü atəş nöqtəsi susduruldu.

1943-cü ildə fevralın 3-dən 4-ə keçən gecə çox zülmət bir gecə idi. Desantçılar doldurulmuş katerlər Gelençikdən səssiz-səmirsiz çıxıb Semes buxtasına doğru yönəldilər. Elə burada qızğın döyüşlərə girdik. Artilleriyamız Sahil zolağını atəşə tutdu. Mirzəxan kişi həmin gecənin iştirakçısı olub və o gecənin dəhşətlərini yaşayıb. Əməliyyat meydanı düşmən tərəfindən ardı arası kəsilmədən atəşə tutulmasına baxmayaraq əsgər və matroslarımız andlarına sadiq qaldılar. Faşistlər hər tərəfdə məhv edilib susduruldu. Hər dəfə hücum qurtardıqdan sonra siyasi rəhbər L.İ. Brejnev yoldaş kiçik torpaqda baş verən hadisələrdən, yeniliklərdən bizə danışırdı. Bəli, çoxlu qurban verilsə də, düşmən məğlub oldu. Kiçik torpağın döyüşçüləri misilsiz hünər göstərdilər.

Gənc döyüşçü M.Hüseynov həmin gecə vuruşlarında əmri yerinə yetirirdi. Lakin, yeddi yerdən ağır yara almış bu cəsur topçunun iki qılçalarının sümüyünü qəlpə sivirmişdi. Bu dəfə birbaşa Soçi hərbi xəstəxanasına göndərildim. Altı ay ayaqlarım gipsdə qaldı. Uzun çəkən müalicədən sonra yenidən döyüş bölgəsinə getmək üçün müraciət etdim. Lakin bu dəfə icazə vermədilər. Arxa cəbhəyə göndərildim. Mirzəxan əfsanəvi 18-ci ordunun iştirakçısı kimi doğma vətənə qayıtdı.

1943-cü ilin dekabrında ordudan təxris olunan M.Hüseynov doğma rayonuna qayıdanda sinəsini orden və medallar bəzəyirdi. Onların arasında I və II dərəcəli Vətən müharibəsi ordeni, 12 döyüş medalı var idi.

Müharibə qurtardıqdan sonra təhsilini davam etdirən Mirzəxan Hüseynov Şamaxı rayonunun Xınıslı və Sis kəndlərində məktəb müdiri işləmişdir. M.Hüseynov 1946-cı ildə Şamaxı rayon partiya Komitəsinin qərarına əsasən Bakıda hüquq məktəbinə oxumağa göndərilmişdir. Hüquqşünas adını aldıqdan sonra Naxçıvan Muxtar Respublikasının Culfa rayonuna xalq hakimi vəzifəsinə göndərilir. Respublikada ilk dəfə Xalq məhkəmələrinə seçkilər keçirilərkən M.Hüseynov Naxçıvan şəhəri 1 saylı "Xalq Məhkəməsi"nə Xalq hakimi seçilmişdir. Bir müddət işlədikdən sonra Mirzəxan müəllim yenidən müəllimlik sənətinə qayıtmaq istəyi ilə sənədlərini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Coğrafiya fakültəsinə verir və müvəffəqiyyətlə daxil olur.

1953-cü ildə həmin İnstitutu bitirib. Həmin ildən Ali təhsilli müəllim kimi pedaqoji fəaliyyətə başlayıb. O, 1953-cü ildən Saatlı rayonunun Mərzəli Krasnoselski, Gomuşçu məktəblərində direktor işləmişdir.

Mirzəxan müəllim 1963-cü ildən 2002-ci ilə qədər Saatlı rayonu Nəriman Nərimanov adına orta məktəbin direktoru işləmişdir. Eyni zamanda Saatlı rayonunun Veteranlar Təşkilatının Sədri idi.

Uzun müddət bir neçə məktəbdə ayrı-ayrı müəllim kollektivlərinə başçılıq etmək,onların dərin hörmət və məhəbbətini qazanmaq, bu illəri qüsursuz yola salmaq direktorun bir çox yüksək keyfiyyətləri ilə bağlıdır. Bunun özü ayrıca proqramı, dərsliyi olmayan bir universitet ,həyat universiteti deməkdir. Bu cür uğurla işləməyin sirlərini açmaq da o qədər sadə iş deyil. Mirzəxan Hüseynov təbiətən xeyirxahdır, şagirdin də, müəllimin də, valideyinin də qəlbinə dəymaz şəxsiyyətinə toxunmaz. Köməyə ehtiyacı olanların müraciətini gözləməz onun iti gözləri, həssas ürəyi hər şeydən xəbərdardır. Mirzəxan müəllim elmi, pedaqoji, metodiki cəhətdən yüksək səviyyədə qurmasının, biliyini daim artırmasının, təkmilləşdirməsinin qayğısına qalmasının, mədəni davranışın bütün atribütlarını özündə cəmləşdirməsinin nəticəsidir ki, 56 illik direktorluq fəaliyyətini qüsursuz başa vurmuşdur. Mirzəxan müəllim həyatı sevən, həyat eşqi ilə yaşayan bir insan idi.



Tədqiqatlarımızdan müəyyənləşdirdik ki, Mirzəxan müəllim məktəbi təhvil alanda necə deyərlər o, adi məktəb idi. Məşğələlərin iki növbədə keçməsi də bir sıra çətinliklər yaratmışdı. Bununla belə Mirzəxan müəllim ruhdan düşmədi. Müvafiq yığıncaqlarda, konfranslarda çıxışlar edib təzə məktəb tikilməsinin zəruriliyindən ürək yanğısı ilə danışdı. Uzun mübarizədən sonra ikimərtəbəli bina tikilib şagirdlərin istifadəsinə verildi. Məşğələlərin bir növbədə keçirilməsi tə min olundu. Bununla direktor təkcə müəllim və şagirdlərin deyil ,valideynlərin də dərin rəğbətini qazandı. Bütün rayon camaatı Mirzəxan müəllimə uşaqların gələcəyi qayğısına qalan bir şəxs kimi baxırdı.

Direktoru olduğu məktəbdə ilk növbədə "Döyüş Şöhrəti" muzeyi yaradıb və bu muzeydə azərbaycanlıların Böyük Vətən müharibəsində göstərdikləri qəhrəmanlıqları əks etdirən stendlər, fotolar, əyani vəsaitlər etdirərək, şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsi ruhunda böyüməıəri üçün bütün imkanlardan istifadə etdi. Direktoru olduğu məktəbdə təşkil etdiyi "Tarix muzeyi", "Əmək şöhrəti" muzeyi, görkəmli dövlət xadimi N. Nərimanovun ev muzeyi, Şəhidlərə həsr edilən abidə,"Ana" abidəsi təkcə rayonda deyil, respublika miqyasında tanındı. Məhz bu yeniliklərə görə Mirzəxan Hüseynovun rəhbərlik etdiyi Saatlı rayonunun N.Nərimanov adına orta məktəbi iki dəfə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin iştirakçısı oldu və sərginin diplomu ilə təltif edildi. Sadə idman qurğuları ilk dəfə bu məktəbdə yaradılmışdır. Birinci sinifdən on birinci sinif şagirdlərinin məktəbli formasına keçməsi də şübhəsiz ki, bütün bu xeyirxah işlərin təşəbbüskarı Mirzəxan müəllimdir. Mirzəxan Hüseynov təkcə çalışdığı məktəbdə deyil, rayonda böyük nüfuz sahibi idi.Veteranlar şurasının sədri kimi də faydalı işlərlə məşğul idi. Müəyyən



məsələlərin həllində rayon rəhbərləri çox vaxt onun məsləhətlərinə əməl edirdilər. Mirzəxan müəllim təkcə direktor olmaqla kifayətlənmir. Təkcə məktəbdə deyil rayon klubunda da məhkəmə, prokuror, polis işçiləri ilə görüşür, konsert proqramları Mirzəxan müəllimin tövsiyəsi ilə hazırlanırdı. Məhz buna görə də M. Hüseynov SSRI Mədəniyyət Nazirliyinin qərarına əsasən "Kənd üzərində mədəni hamilik əlaçısı" döş nişanı ilə təltif olunmuşdur. M.Hüseynov Pedaqoji fəaliyyəti dövründə təhsil sahəsində ən yüksək mükafatlarla təltif olunub. Müharibədə göstərdiyi şücaətə görə aldığı orden və medallarla yanaşı, ömrünün yarım əsrdən çoxunu - 56 ilini məktəb direktorluğuna həsr edən Mirzəxan Hüseynovun təltifləri - Azərbaycan Respublikasının "Qabaqcıl Maarif xadimi", SSRİ Maarif əlaçısı, "Sosializm yarışının qalibi" , döş nişanları, SSRİ Nazirlər Sovetinin, UİHİK -in və o dövrün digər ali mükafatları ilə təltif olunması pedaqoji fəaliyyətinə verilən yüksək qiymət idi. Prezident təqaüdçüsü, yeni Azərbaycan Partiyasının üzvü idi.

Vaxtilə müharibə dövründə 18-ci Ordunun tərkibində "Kiçik torpağın" faşistlərdən təmizlənməsində mərdliklə vuruşan Mirzəxan Hüseynov Sovet İKP MK-nin Baş Katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri, L.İ. Brejnevin Bakıya gəlməsi münasibətilə görüşə dəvət olunmuşdu.

Mirzəxan Hüseynov gözəl ailə başçısı idi. Ömür - gün yoldaşı, şərqşünas Cəmilə xanımın vəfatından sonra, demək olar ki, 30 ilə yaxın müddətdə ailə həyatı qurmadı. Bununla da kişi sədaqəti, dəyanəti, ər etibarı, müəllim etikası nümayiş etdirdi. Böyüdüb ərsəyə çatdırdığı oğlu və qızları da ali təhsilli kimi müxtəlif peşələrə yiyələndilər. Oğlu Elxan mühəndis, qızı Sevda atası kimi coğrafiya müəllimidir. Şəhla biologoya müəllimidir. Lətafət kitabxanaçıdır. Mətanət tibb bacısıdır. Atasının pedaqoji fəaliyyətini davam etdirən Yeganə Hüseynova filologiya üzrə elmlər doktorudur. Hazırda dövlət universitetlərinin birində pedaqoji fəaliyyətini davam etdirir. Mirzəxan Hüseynovun nəvə və nəticələri babaları ilə fəxr edirlər.

Mirzəxan Hüseynovun xatirəsi daim əziz tutulur. Onun rəhbərlik etdiyi məktəbin yetirmələri bu gün respublikamızın müxtəlif bölgələrində, paytaxtda müxtəlif elm, təhsil, sənaye və istehsal müəssisələrində, ali məktəblərdə çalışırlar. Onlar təhsil fədaisi, "Mirzəxan Hüseynov məktəbi" nin yetirmələri olduğundan qürur duyurlar.

Mirzəxan Hüseynov igid döyüşçü və əsl təhsil fədaisidir.

***"Azərbaycan Veteranı"***

# 67 yaşlı mübariz veteranın döyüş yolu

Müharibə-təlatüm, dağıntı, faciədir. Müharibə edən hər iki tərəf ağır itkilər verir. Belə müharibələr insanlara heç vaxt xoşbəxtlik gətirməyib. Ağır müharibələrdən biri də 1979-cu ildə Əfqanıstan Respublikasında baş verib. Ağır vəziyyətdə qalan Əfqanıstan rəhbərliyi məcburən keçmiş SSRİ-yə müraciət edərək, Beynəlmiləl-qardaşlıq köməyi istəyib. Bu səbəblə də 1979-cu il 25 dekabrda Sovet Ordusunun əsgərləri Əfqanıstana daxil oldu. Bu döyüş-çülər içərisində mübariz, cəsur, qorxmaz, Azərbaycan oğlu Elşad Şabanov da olub. Onun keçdiyi döyüş yolları ilə oxucuları da tanış etmək istərdik.

Xatırladaq ki, Elşad Şabanov 1952-ci ildə Azərbaycan Respublikasının Qax rayonunda anadan olub və orta məktəbi qızıl medalla bitirib. Elşad ilk ali təhsilini M.F.Axundov adına ADPİ-nin rus dili və ədəbiyyatı fakültəsində alıb. Sonra Ukraynada Sovet ordusu sıralarında xidmət edib. 1978-ci ildə SSRİ DTK-nın ali məktəbini bitirdikdən sonra respublikanın Qəbələ rayon şöbəsində əməliyyat müvəkkili və baş əməliyyat müvəkkili vəzifəsində çalışıb. Xidməti zamanı göstərdiyi yüksək uğurlara görə, 1983-cü ildə SSRİ DTK-nın Baş Kəşfiyyat İdarəsinin nəzdindəki iki il xarici dil təmayüllü xüsusi ali kurslarına göndərilib. O, 1985-ci ildə həmin kursları müvəffəqiyyətlə başa vurduqdan sonra SSRİ DTK-nın müşaviri kimi Əfqanıstanın Xüsusi Xidmət Orqanlarının silahlı müxalifətə, banditizmə və terrorçuluğa qarşı apardığı xüsusi döyüş əməliyyatlarının təşkilatçısı və rəhbəri olub.

Həmin əməliyyatlarda Elşad Şabanov yaralanıb. Kabul şəhərində hospitalda müalicə olunduqdan sonra Əfqanıstanın cənubuna, Pakistan yaxınlığındakı Zabul vilayətinə göndərilib. Döyüşlərdə xüsusi əməliyyatlara rəhbərlik edərək Sovet Ordusu xüsusi təyinatlıları ilə birlikdə Pakistandan Əfqanıstan ərazisində müqavimət göstərən terrorçu qüvvələrə və silahlı müxalifətçilərə hərbi yük daşıyan maşın karvanlarının məhv edilməsində fəal iştirak edərək həmin əməliyyatların təşkilatçısı və rəhbərlərindən biri olub.



O, Əfqanıstan Xüsusi Xidmət Orqanlarının Pakistan ərazisində yerləşən terrorçu, bandit hazırlıq düşərgələrində onlara qarşı keçirdikləri "kəskin", xüsusi döyüş əməliyyatlarına rəhbərlik edib.

1987-ci ilin may ayında rəhbərlik və bilavasitə sıravi döyüşçü kimi iştirak etdiyi "Sfinger" əməliy-yatına görə mükafata təqdim edilib, lakin almayıb. Həmin əməliyyatlarda mücahidlərin Pakistan ərazisindən Əfqanıstana keçirmək istədikləri maşın karvanı məhv edilərək ABŞ-ın istehsalı olan "Sfinger" tipli raket kompleksi və digər silah növlərini ələ keçirib. Həmin ilin avqust ayında döyüş əməliyyatları zamanı mübariz döyüşçü Elşad minaya düşür və ikinci dəfə yaralanır.

Əfqanıstandan qayıtdıqdan sonra, 1987-90-cı illərdə Azərbaycan DTK-nın Xaçmaz rayon şöbəsinin, 1990-91-ci illərdə Bakı şəhəri Əzizbəyov rayon şöbələrinin rəisi işləyib. DTK-MTN-nin Mərkəzi Aparatında rəhbər vəzifələrdə çalışıb. Milli Təhlükəsizlik Nazirliyinin Xüsusi Təyinatlı dəstəsinin yaradıcılarından biri kimi Qarabağ uğrunda gedən qanlı döyüşlərdə, cəbhə bölgəsində xüsusi əməliyyatların təşkilatçısı və rəhbəri olub.

1993-cü ildə Ulu Öndərin hakimiyyətə ikinci dəfə qayıdışından sonra iyul ayından Milli Təhlükəsizlik Nazirinin xüsusi tapşırıqlar və hərbi məsələlər üzrə köməkçisi olub. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, Azərbaycan dövlətçiliyi uğrunda Ulu Öndərin apardığı mübarizənin fəal iştirakçılarından biridir.

1997-ci ilin may ayında ehtiyata göndərilib. Ehtiyatda olan Elşad Şabanov polkovnikdir.

Vətən Təhlükəsizlik orqanları qarşısındakı xidmətlərinə görə E.Şabanov "SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Fəxri Əməkdaşı" döş nişanı və SSRİ-nin "Qırmızı Ulduz" ordenləri, "İgidliyə görə" medalları, SSRİ-nin "Döyüş xidmətinə görə" medalı, "SSRİ Ali Sovetinin Fəxri fərmanı", "Beynəlmiləlçi döyüşçüyə, igidliyə və hərbi rəşadətə görə" medalı, "Qədirbilən əfqan xalqından" medalı, "Qüsursuz xidmətlərinə görə" medalı, Rusiya Federasiyasının "Əfqanıstan Müharibəsinin veteranı" və "Döyüş xidmətlərinə görə" ordenləri, "Za mujestva i otvaqu" medalı, "Pənşir əməliyyatına görə", "Məhəlli münaqişələrin iştirakçısına", "Xüsusi təyinatdakı xidmətinə görə", "Əfqanıstan Demokratik Respublikasında beynəlmiləl borcunu ləyaqətlə yerinə yetirdiyinə görə" medalları, Əfqanıstan Respublikasının "Hərbi Şöhrət" ordeni, "İgidliyə görə" medalları, Müstəqil Dövlətlər Birliyinin təsis etdiyi "Döyüş əməliyyatları Veteranı" medalı və digər döyüş, eləcə də yubiley medalları ilə təltif olunub.

İradəli və mübariz döyüşçü, iki müharibə veteranı olan Elşad Şabanov bu gün respublikada keçirilən tədbirlərdə fəal iştirak edir. O, gənclərə öz döyüş yolu və göstərdiyi igidlikdən danışır və onlara Vətəni göz-bəbəyi kimi qorumağı məsləhət görür.

İyun ayının 17-sində qəhrəman vətən oğlu Elşad Şabanovun 67 yaşı tamam olub. Elşad müəllimi Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti və veteranlarımız adından təbrik edir, ona can sağlığı arzulayırıq.

***"Azərbaycan Veteranı" qəzetinin redaksiyası***

# Həmişə çalışmışam ulu öndərimizin etimadını doğruldum

Babayev Adil Bəykişi oğlu 1943-cü il iyul ayının 1-də Cəlilabad rayonunun Xanılı kəndində kolxozçu ailəsində anadan olub. Uşaq vaxtlarından valideynlərini itirib. Uşaqlıq illəri çox ağır keçən Adil qardaşının himayəsində Cəlilabad rayonunda orta məktəbi bitirdikdən sonra Bakı şəhərinə gələrək tikintidə - Bakı Baş Tunel idarəsində fəhlə-çilingər işləyib. 1962-ci ildə hərbi xidmətə çağırılaraq Almaniya Demokratik Respublikasına göndərilmişdir. Orada hərbi məktəbi əla qiymətlərlə bititrdikdən sonra taqım komandiri vəzifəsinə təyin olunmuşdur. 1965-ci ildə hərbi xidmətdən tərxis edildikdən sonra vətənə qayıtmış və dahi ulu öndərimiz Heydər Əliyevin göstərişi ilə 1966-cı ildən Dövlət Təhlükəsizlik orqanlarında işə qəbul olunuşdur. Adil Babayev xatirələrindən danışarkən qeyd edir ki, o, ömrümün ən xoşbəxt gününü Ulu öndərimiz Heydər Əliyev ilə görüşdüyü günü hesab edir. Belə ki, 1965-ci ilin axırı hərbi xidmətdən tərxis olunandan sonra Bakı şəhərinə gələn Adil qohumlarının birinin evində qalmalı olur. Günlərin birində şəhərdən evə qayıdan zaman onu sorğu-suala tutaraq ondan hərbidə olan zaman xoşagəlməz bir hadisə törədib törətməməsini soruşurlar. O, isə orduda yaxşı xidmət etdiyini, partiya bileti, medal, təşəkkürnamə, xasiyyətnamə aldığını vurğulayır. Bu sorğu sualın səbəbi evə gələn məktub olur, ona bildirirlər ki, Dövlət Təhlükəsizlik orqanlarından evə məktub gəlib, səni ora çağırırlar. Adil Babaşov: "Həmin gün Dövlət Təhlükəsizlik idarəsinə getdim. Orada məni idarənin bir işçisi- milliyyətcə rus olan bir adam qarşıladı və daxili telefonda bir nəfərə zəng edib məni o şəxsin yanına apardı. Mən o adamın iş kabinetinə daxil olanda məlum oldu ki, ümummilli liderimiz Heydər Əliyevdir. O, məni çox səmimi qəbul edib, söhbət etdi. Xeyli sual-cavabdan sonra dedi: Dövlət Təhlükəsizlik orqanlarına belə fəhlə-kəndli sinifindən insanlar lazımdır. Mən həmişə fəxr etmişəm ki, ulu öndərimiz mənə inanıb və məni çox məsuliyyətli bir sahədə qulluq etməyi etibar edib. Həmişə çalışmışam ulu öndərimizin etimadını doğruldum."

1970-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakultəsini bitirmişdir.

Polkovnik leytenant Adil Babaşov uzun müddət Milli Təhlükəsizlik orqanlarında xidmət etdiyi zaman həmişə çalışmışdır ki, ulu öndərimizin ona göstərdiyi etimadı doğrultsun. Xidmət etdiyi illər ərzində əməkdaşlarımızın və gənclərimizin vətənpərvərlik, eləcə də dövlətçiliyə sədaqət ruhunda tərbiyə edilməsində, peşəkar kadrların yetişdirilməsində, yüksək idarəetmə bacarığına sahib rəhbər və səmimi insan kimi əvəzsiz xidmətləri olmuşdur. O, öz qulluq vəzifəsini vicdanla yerinə yetirərkən dövlətimizin ictimai-siyasi işlərində fəal iştirak etmişdir. 1990-cı ildə Neftçala rayonu seçki komissiyası tərəfindən rayon sovetinə deputatlığı namizədliyi qeydə alınaraq, rayon sovetinə deputat seçilmişdir. Qazandığı müvəffəqiy-yətlərə görə dövlət mükafatı, bir sıra medal və döş nişanları ilə təltif edilmişdir. Çalışdığı bu çətin sahələrdə özünü bacarıqlı, yüksək ixtisaslı mütəxəssis kimi göstərməyi bacarmışdır.

Ulu öndərimiz Heydər Əliyev demişdir: "Mən həmişə arzu etmişəm ki, insanlara xidmətlərinə görə qiymət verilsin". Bu dahiyanə sözlərin əyani sübutlarından biri odur ki, o həmişə vicdanla, namusla işə can yandıranları vaxtında qiymətləndirirdi. Buna misal olaraq onun təşəbbüsü ilə 1968-ci ildə A.Babaşova şəhərin mərkəzində mənzil verilmişdir.

Orduda və Təhlükəsizlik orqanlarında 32 il xidmət etdikdən sonra A.Babaşov təqaüdə çıxıb və 1994-cü ildən Respublika Veteranlar Təşkilatında baş mütəxəssis vəzifəsində çalışmaqdadır. 2013-cü ildə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi tərəfindən yubiley münasibətilə ona qiymətli hədiyyələr bəxşiş edilib. Bu ilin 19 aprelində Dövlət Təhlükəsizlik Xidmətinin 100 illiyi münasibətilə medal və təşəkkürnamə ilə təltif olunmuşdur.

A.Babaşov Qarabağ müharibəsi iştirakçısıdır, eyni zamanda 1988-ci ildən Silahlı Qüvvələr veteranıdır. Hal-hazırda da Adil Babaşov bir veteran kimi işlədiyi təşkilatın ictimai-siyasi işlərində fəal iştirak edir, gənclərimizin hərbi-vətənpərvərlik tərbiyəsi sahəsində iş aparır.

2019-cu ilin iyul ayının 1-də Adil Babaşovun 76 yaşı tamam olacaq. Respublika Veteranlar Təşkilatının əməkdaşları və veteranlarımız adından Adil Babaşova can sağlığı arzu edirik.

Ə.M.Əliyev
Respublika Veteranlar Təşkilatının sosial müdafiəsi şöbəsinin əməkdaşı, ehtiyatda olan polkovnik

# Görkəmli mühəndis və ictimai xadim Kamil Akimov vəfat edib

2019-cu il iyunun 16-da tanınmış ictimai xadim, Azərbaycan neft emalı sənayesinin təşkilatçılarından biri, Azərbaycanın əməkdar mühəndisi Akimov Kamil Əlisoltan oğlu 92 yaşında Bakı şəhərində vəfat etmişdir.

Kamil Akimov 1927-ci il iyulun 11-də Sabirabad şəhərində sənətkar ailəsində anadan olub. 1947-ci ildə Bakı Neft Texnikumunu fərqlənmə diplomu ilə bitirdikdən sonra təhsilini Azərbaycan Sənaye İnstitutunda davam etdirib və eyni zamanda Neftayırma zavodunda operator köməkçisi kimi əmək fəaliyyətinə başlayıb. 1952-ci ildə ali təhsilini neft və qazın emalı üzrə mühəndis-texnoloq ixtisası ilə başa vurduqdan sonra zavodun ən məhsuldar qurğularından birinə rəis təyin edilib.

Kamil Akimov istehsalatda çalışmaqla yanaşı elmi axtarışlarını davam etdirib, neft emalı sənayesi sahəsində 30-a yaxın təklifin, 10-a yaxın ixtiranın müəllifi olub. Bu illər ərzində o, neftayırma sənayesi işçiləri, texnikum və institut tələbələri üçün dərsliyin və bir neçə kitabçanın çapdan çıxmasına nail olub.

O, 1962-ci ildə zavodun baş mühəndisinin müavini, 1963-cü ildə Azərbaycan KP MK, respublika Nazirlər Soveti yanında yeni təşkil olunmuş Partiya Dövlət Nəzarət Komitəsinin neft və kimya sənayesi şöbəsinə rəis müavini, 1964-cü ildə isə Ə.Qarayev adına neft emalı zavoduna direktor vəzifəsinə təyin edilib.

Kamil Akimov zavoda rəhbərlik etdiyi illərdə qurğuların yeni texnologiya əsasında təkmilləşdirilməsi, istismarı və təmiri işləri ilə məşğul olaraq, qısa müddətdə zavodun qabaqcıl sənaye müəssisələri sırasına çıxmasına nail olub. Məhz bu uğurlarına görə o, “Şərəf Nişanı” ordeninə, “Əməkdar Mühəndis” fəxri adına layiq görülüb və daha məsul vəzifələrə irəli sürülüb.

Kamil Akimov 1967-ci ildə Azərbaycan Respublikası neftayırma sənayesi nazirinin 1-ci müavini, 1970-ci ildə isə Azərbaycan Respublikası neftayırma sənayesi naziri təyin edilib. 1970-80-ci illərdə Ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə neftayırma zavodlarında aparılan yenidənqurma işlərində Kamil Akimovun xüsusi xidmətləri vardır. O dövrdə Azərbaycana yüksək məhsuldarlığa malik iki ELOU-AVT-6 qurğusu gətirilib, Bakı neftayırma zavodu yeni texnologiyaya əsaslanan katalitik riforminq qurğusu ilə təchiz edilib, neftayırma zavodları üçün möhkəm maddi-texniki baza yaradan yeni obyektlər tikilib istifadəyə verilib.

Kamil Akimov 1970-80-ci illərdə neft emalı sənayesində göstərdiyi xidmətlərə görə “Oktyabr inqilabı”, “Qırmızı Əmək Bayrağı” ordenləri, Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilib, 2 çağırışda Ali Sovetin deputatı seçilib. Kamil Akimov zəngin təcrübəsi, dəyərli məsləhətləri ilə təkcə Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də neft emalı sənayesinin inkişafına mühüm töhfələr verib. O, ayrı-ayrı illərdə İraqda və Kubada neft emalı zavodlarının yenidən qurulmasında sovet mühəndislərinin işinə birbaşa rəhbərlik edib, həmin ölkələrin fəxri fərmanları və yüksək mükafatlarına layiq görülüb.

Kamil Akimov ömrünün ahıl vaxtlarında da neft emalı sənayesinə töhfələr verməkdə davam edib. SOCAR-ın “Ekol Mühəndislik Xidmətləri” Qapalı Səhmdar Cəmiyyətində baş direktorun məsləhətçisi kimi fəaliyyət göstərən görkəmli mühəndisin neft emalı prosesində formalaşan neft şlamın emalı və zərəsizləşdirilməsi, sənaye çirkab sularının təmizlənməsi texnologiyalarının təkmilləşdirilməsinə dair verdiyi təkliflər uğurla həyata keçirilir. Kamil Akimov daim öz həyat və əmək təcrübəsini gənclərlə



bölüşmüş, peşəkar mühəndis və texnoloq kadrlarının yetişdirilməsində mühüm rol oynamışdır.

Görkəmli mühəndis və ictimai xadim Kamil Akimovun unudulmaz xatirəsi daim qəlblərdə yaşayacaq, onun neft emalı sənayesinə gətirdiyi yeniliklər bundan sonra da iqtisadiyyatımızın inkişafına töhfələr verməkdə davam edəcəkdir.

Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti və kollektivi görkəmli ictimai xadim Kamil Akimova Allahdan rəhmət diləyir, yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət etsin!

# Böyük Vətən müharibəsinin iştirakçısı Hüseynov Mürşüd Həbib oğlu

Böyük Vətən müharibəsinin iştirakçısı 99 yaşlı Hüseynov Mürşüd Həbib oğlu 7 iyun 2019-cu il tarixdə vəfat etmişdir.

Müharibə veteranı rayon rəhbərliyinin və geniş ictimaiyyətin iştirakı ilə doğma Xıl kəndində torpağa tapşırılmışdır.

Mürşüd Hüseynov 15 iyun 1920-ci ildə Masallı rayonunun Xıl kəndində anadan olmuşdur. 1941-ci ildə ordu sıralarına çağırılmış və Stalinqrad cəbhəsində başlayan döyüş yolu Berlinin alınması ilə başa çatmışdır. Vətənə 1-ci qrup müharibə əlili kimi qayıtmışdır.

“Vətən Müharibəsi” ordeni, “1941-1945-ci illər BVM-də Almaniya üzərində qələbəyə görə” və digər döyüş orden və medalları ilə təltif edilmişdir.



RİH-in başçısı Rafil Hüseynov Masallı rayon Veteranlar Təşkilatının üzvləri ilə birlikdə Mürşüd Hüseynovla görüşündən

Mürşüd Hüseynov gənclərlə görüşlərində deyərdi : “ Bizim döyüş yolumuz çox ağır, düşmən isə çox güclü idi. Biz bir olduq, mərdliklə vuruşduq və qalib gəldik. Siz də cəsur olun ki, mənfur düşmənə qalib gəlib Qarabağı azad edəsiz. Bizə öz milli Qələbəmizin sevincini yaşadasınız”.

Biz əminliklə deyirik : Mürşüd baba, yaxın gələcəkdə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu qələbəni yaşayacağıq.

***Məmmədağa Şiriyev***
***Masallı RVT-nin sədri***

# *DAĞ KƏNDİNDƏ VETERANLARLA GÖRÜŞ*

Cəlilabad rayonunun Sarxanlı kənd ümumi orta məktəbində rayon Veteranlar Təşkilatının sədri Əliheydər Əsədov və veteranlarla məktəb kollektivinin və kənd sakinlərinin görüşü keçirildi. Tədbirin məqsədi ölkə rəhbərinin veteranlarımıza göstərdiyi dövlət qayğısını, regionlarımızın sosial-iqtisadi inkişafı üçün qəbul edilən proqramların müntəzəm həyata keçirilməsini görüş iştirakçılarının diqqətinə bir daha çatdırmaq idi.



Cəlilabad rayon Təhsil şöbəsinin nümayəndəsi Vaqif Süleymanov, “Sözün işığı” jurnalının baş redaktoru, şair-publisist Ədalət Salman, Qarakazımlı kənd tam orta məktəbin direktoru Nazim Əliyev, kənddə yaşayan veteranlardan Cahangir Canıyev, Həsənağa Cavadov, Qardaşəli Nəzərov, Təvəkkül Balaşov, Dələli kənd ümumi orta məktəbin direktor müavini Əzizağa Xudiyev, Qarakazımlı kənd bələdiyyəsinin sədri Məhəmməd Bəşirov, Sarxanlı kənd ümumi orta məktəbinin direktoru Camal Bəşirov və başqaları çıxış edərək möhtərəm prezidentimiz İlham Əliyevin veteranlarımıza göstərdiyi dövlət qayğısından və regionlarımızın inkişafı üçün gördüyü işlərdən danışdılar. Çıxış edənlər qonşu Dələli kəndində boya-boşa çatıb əmək fəaliyyətinə kənddəki kolxozda fəhləliklə başlamış, daha sonra həmin təsərrüfata rəhbərlik etmiş Cəlilabad rayon Veteranlar Təşkilatının sədri Əliheydər Əsədovla bağlı xatirələrini də söylədilər.

Şagirdlərin hazırladıqları ədəbi-bədii kompazisiya iştirakçılar tərəfindən alqışlarla qarşılandı.

Cəlilabad rayon Veteranlar Təşkilatının sədri Əliheydər Əsədov çıxış edərək ölkəmizdə veteranlara dövlət səviyyəsində göstərilən qayğıdan danışdı, prezident İlham Əliyeva öz minnətdarlığını bildirdi. Daha sonra o, ucqar dağ kəndində veteranlarla yüksək səviyyədə görüş təşkil olunmasına görə Sarxanlı kənd ümumi orta məktəbinin direktoru Camal Bəşirova və tədbir iştirakçılarına təşəkkür etdi.

Görüş dərs ilinin sonuna təsadüf etdiyindən məktəbin təlim-tərbiyə və tədris işində fərqlənən şagird və müəllimlərə Fəxri Fərmanlar təqdim olundu.



Şagirdlərin hazırladığı guşələr, çəkdiyi rəsimlər, kağız və plastilindən düzəltdikləri əl işləri tədbir iştirakçılarına xoş ovqat bəxş etdi.

Sonda xatirə şəkilləri çəkdirildi. Tədbir iştirakçıları etiraf etdilər ki, keçirilən bu möhtəşəm görüş uzun müddət xatirələrdən silinməyəcək...

***Ədalət Salman,***
***“Azərbaycan veteranı” qəzetinin bölgə müxbiri***

# 90 yaşlı Ənvər Kərimov

1941-1945-ci illər Böyük Vətən müharibəsində bütün Azərbaycan xalqı kimi, Zaqatalanın igid oğul və qızları da böyük rəşadət göstərərək, Qafqazdan Berlinədək şanlı döyüş yolu keçiblər.

Faşizm üzərində qələbənin əldə edilməsində həmin illərində cəbhəyə yola düşmüş 7 minə yaxın zaqatalalının da böyük rolu olub. Onlardan 3600 nəfəri amansız müharibədən geri qayıtmayıb. Müharibədən sağ-salamat qayıdanların da böyük əksəriyyəti artıq həyatdan köçüb. Lakin bu insanlar heç vaxt unudulmur, sağlığında olduğu kimi, indi də məhəbbətlə anılır, yad edilirlər. Bu cəsur oğulların vətənpərvərliyi hər bir azərbaycanlıya, eləcə də zaqatalalıya örnəkdir.

Zaqatalanın qocaman veteranlarından biri də Ənvər Mövsüm oğlu Kərimovdur. Ənvər kişi arxa cəbhə veteranıdır. O, 1929-cu ilin iyun ayının 23-də Zaqatala rayonunda anadan olmuşdur. 1949-1952-ci illər ərzində, daha dəqiq desək 3 il 3 ay müddətində Ukrayna Respublikasının Odessa şəhərində hərbi xidmətdə olmuşdur. Xidmət dövründə Ənvər kişinin hərbi rütbəsi kapitan olmuşdur. Ənvər Kərimov "Əmək fərqlənmə medalı", "Arxa cəbhə medalı", "Veteran həmrəyliyi" medalı və bir sıra digər orden və medalların sahibidir.



Rayonun bütün tədbirlərində aktiv şəkildə iştirak edən Ənvər Kərimov hər daim yeniyetmə və gənclərlə ünsiyyətdə olur, onlarla hərbi vətənpərvərlik mövzusunda söhbətlər aparır, onlara öz nəsihətlərini verir.

2002-ci ildən Zaqatala rayon Veteranlar Təşkilatının sədri vəzifəsini yerinə yetirən Ənvər Kərimovun iyun ayının 23-də 90 yaşı tamam olur. Qocaman veteranımızı Respublika Veteranlar Təşkilatının Rəyasət Heyəti və kollektivi adından təbrik edir, ona can sağlığı arzu edirik.

# Sumqayıt şəhəri ilə həmyaşıd olan Fəxrəddin Behbudov

70 yaşlı, Corat qəsəbəsinin istedadlı vətəndaşı, Coratda Qarabağ veteranlar təşkilatının sədri, həmçinin Sumqayıt Veteranlar Təşkilatının üzvü olan Fəxrəddin Xalid oğlu Behbudov 1949-cu il mayın 29-da Göyçay rayonunun Bığır kəndində anadan olmuş və orta təhsilini də bu kənddə almışdır.

1966-cı ildən taleyini Sumqayıt şəhərinə bağlayaraq burada Texnoloji Texnikuma daxil olmuşdur və 1968-ci ildə Vətənin müdafiəsi üçün hərbi hissədə öz vətəndaşlıq borcunu yerinə yetirdikdən sonra yenidən Sumqayıt şəhərinə qayıtmış və SK zavodunda əmək fəaliyyətinə başlamışdır. Bu zavodda o, texniki nəzarət şöbəsində usta vəzifəsində çalışmışdır. İstər zavodun, istərsə də yaşadığı Sumqayıt şəhərinin ictimai-siyasi həyatında fəal iştirak edərək ilk komsomol komitəsinin katibi, ilk partiya təşkilatının katibi, həmkarlar təşkilatının və xalq nəzarətinin büro üzvü kimi ictimai vəzifələr aparmış və 1990-cı ildə Yerli Sovetin Deputatı seçilmişdir. Behbudov tez-tez cəbhə bölgələrinə gedərək gənc əsgərlərə mənəvi dayaq olmuşdur.



1992-ci ildə "Xocalı" faciəsindən sonra Qarabağ uğrunda gedən döyüşlərdə iştirak etmiş və 1996-cı ildə istefaya buraxılmışdır.

2003-cü ildə Sumqayıt Nəqliyyat Departamentində baş dispeçir (hərəkətin tənzilləyicisi) vəzifəsində çalışmışdır.

Fəxrəddin bəy 2010-cu ildən Sumqayıt və ətrafındakı hərbi hissələrin bütün tədbirlərində, "Açıq qapı" günündə və andiçmə mərasimlərində fəal iştirak edib.

Şəhərin ictimai-siyasi həyatındakı fəal iştirakına görə o, 2019-ci il avqustun 28-də Azərbaycan Vətən Müharibəsi Veteranlar Təşkilatı İctimai Birliyinin təsis etdiyi "Müharibə Veteranı" və "Azərbaycan Ordusunun 100 illiyi" medalları ilə təltif olunmuşdur.

Fəxrəddin Behbudov ailəlidir, 3 övladı 7 nəvəsi var. Övladları ali təhsillidir.

Fəxrəddin Behbudova can sağlığı arzulayırıq.

# Yüz yaşlı veteran



Yusif Əskər oğlu Salamov 1920-ci ilin yanvar ayında Şəkinin Baş Göynük kəndində anadan olub. Orta məktəbi bitirən Yusif Şəki Kənd təsərrüfatı texnikumuna qəbul olub. Lakin 1940-cı ildə təhsilini bitirmədən hərbi xidmətinə yollanıb. İkinci Dünya müharibəsində iştirak edib, yaralanaraq cəbhədən geri qayıtmışdır. Sağalandan sonra Baş Göynük Lenin adına kolxozda aqrotexnik kimi işləməyə başlamış, 1970-1980-ci illərdə Şəkidə yaradılan Təsərrüfatlar arası cins mal-qara birliyi kökəltmə təsərrüfatı, damazlıq birliyi və təsərrüfatlar arası bağçılıq birliyinin tikintisində təcrübəli tikinti ustası kimi fəaliyyət göstərmişdir.

Yusif Salahov 1980-cı ildən Əmək veteranıdır, 1999-cu ildən isə Yeni Azərbaycan partiyasının üzvüdür.

Yusif Salahov rayonumuzda olan Sərhəd Qoşunları və Daxili Qoşunların əsgərləri, Pedaqoji Universitetin tələbələri, orta məktəb şagirdləri ilə "Vətənpərvərlik", "Ölkəmizi sevək", "Prezidentimizi dəstəkləyək" mövzularında görüşlərdə bu gün də fəal iştirak edir, gənclərə öz nəsihətlərini verir.

Yusif Salamovun 4 oğlu , 2 qızı, 14 nəvəsi və 15 nəticəsi var.

Qocaman veteranımıza sağlam ömür arzulayırıq.

*Mustafa Əhmədov*
*Şəki Veteranlar Təşkilatın sədri*

## İkinci Dünya müharibəsi zamanı müttəfiqlərin Avropaya hücumunun 75 illiyi qeyd olunub

Bu gün İngiltərənin Portsmut liman şəhərində İkinci Dünya müharibəsi zamanı müttəfiq qüvvələrin Avropaya hücumunun (Normandiya əməliyyatı) 75 illiyi ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə İngiltərə Kraliçası II Elizabet, Baş Nazir Tereza Mey, ABŞ Prezidenti Donald Tramp, Kanadanın Baş Naziri Castin Trüdo, Fransa Prezidenti Emanuel Makron, Almaniya Respublikasının Federal Kansleri Angela Merkel və İkinci Dünya müharibəsi veteranları iştirak ediblər.



Mərasimdə çıxış edən Kraliça II Elizabet 75 il öncə yüzminlərlə insanın müstəqilliklərini qorumaq üçün Portsmut limanını tərk etdiklərini bildirib.

Daha sonra Böyük Britaniyanın Baş Naziri Tereza Mey, ABŞ Prezidenti Donald Tramp, Fransa Prezidenti Emanuel Makron və Kanadanın Baş Naziri Castin Trüdo çıxış ediblər.

*Aynurə Tağıyeva*
*AZƏRTAC-ın xüsusi müxbiri*
*London*

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

*Baş redaktor*
*Ülvi İBRAHİMLİ*
*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
*Təsisçi: Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
*VÖEN: 1701285981*
*verilmə tarixi - 23.11.2011*

*Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
*Əlaqə telefonu: 012 440-21-08*
*e-mail: az.veteran@mail.ru*
*Dövlət qeydiyyat nömrəsi - 3486*
*Dövlət qeydiyyat tarixi - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*